**A Z Ə R B A Y C A N R E S P U B L İ K A S I**

**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ**

**S Ə R Ə N C A M I**

**№** 307 "13" dekabr **2022-ci il**

**"Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 noyabr tarixli 3623 nömrəli Sərəncamının icrası ilə bağlı Tədbirlər Planı"nın təsdiq edilməsi barədə**

Azərbaycan xalqının tarixində və taleyüklü məsələlərin həllində müstəsna xidmətləri olan tarixi şəxsiyyətlər, görkəmli siyasət və dövlət adamları çox olmuşdur. Onlar zaman-zaman gördükləri böyük işləri və əməlləri ilə yaddaşlara yazılmış və əbədiyaşarlıq qazanmışlar.

Belə tarixi şəxsiyyətlər içərisində Azərbaycan xalqının ümummilli lideri adını qazanmış görkəmli dövlət xadimi, dünya miqyaslı siyasətçi Heydər Əliyevin xüsusi rolu vardır. Milli liderliklə siyasi liderlik keyfiyyətlərinin bir insanda birləşməsi bəşər tarixində nadir rast gəlinən unikal haldır. Ulu Öndər bu iki keyfiyyəti ehtiva etməklə bərabər, fəaliyyət göstərdiyi bütün digər sahələrdə də özünü məhz birinci şəxs kimi, lider kimi təsdiq etmişdir.

Bu gün ölkəmiz Heydər Əliyev siyasətinin uğurlarını hiss edir, onunla yaşayır və faydalanır, onun siyasi kursu dövlət müstəqilliyimizin qorunub saxlanılması və möhkəmləndirilməsi, Azərbaycanın beynəlxalq imicinin yüksəldilməsi, sosial-iqtisadi tərəqqiyə nail olması kimi ağır və taleyüklü məsələlərdə sınaqdan çıxmışdır.

"Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 noyabr tarixli 3623 nömrəli Sərəncamını və "Yerli İcra Hakimiyyətləri Haqqında Əsasnamə"nin 4.1.2-ci və 6.8-ci bəndlərini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 noyabr tarixli 3623 nömrəli Sərəncamının icrası ilə bağlı Tədbirlər Planı" təsdiq edilsin (əlavə olunur).
2. Rayon İcra Hakimiyyəti başçısının müavinləri, Aparatın şöbə müdirləri və müvafiq qurumların rəhbərləri tədbirlər planında nəzərdə tutulmuş məsələlərin icrası üçün təşkilati hazırlıq işlərini həyata keçirsinlər və icrasını təmin etsinlər.

3. Sərəncamın icrasına nəzarət Rayon İcra Hakimiyyəti başçısının müavini Sevinc Süleymanovaya həvalə edilsin.

**Elxan Allahverdiyev**

**ƏSLİ İLƏ DÜZDÜR:**
**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** **Sabir Əliyev**

**Binəqədi Rayon İcra Hakimiyyəti başçısının**
**“13” dekabr 2022-ci il tarixli 307 saylı**
**Sərəncamı ilə təsdiq edilmişdir**

**“Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi ilə bağlı Tədbirlər Planı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 noyabr tarixli 3623 nömrəli Sərəncamının icrası ilə bağlı**

**TƏDBİRLƏR PLANI**

| Sıra №-si | Tədbirin adı | İcra müddəti | İcraçı orqanlar (qurumlar) |
|---|---|---|---|
| **1.** | **“Heydər Əliyev İli”** ilə əlaqədar rayon ərazisində müvafiq poster və bannerlərin yerləşdirilməsi, monitorlarda videoçarxların nümayiş etdirilməsi | 2023-cü il ərzində | Binəqədi Rayon İcra Hakimiyyəti<br>Binəqədi Rayon İcra Hakimiyyəti başçısının SİƏD və QİƏD üzrə nümayəndələri,<br>Bələdiyyələr (tövsiyə olunur) |
| **2.** | Gənclərin yaradıcılıq fəaliyyətinin dəstəklənməsi məqsədilə gənc rəssamlar arasında **“Heydər Əliyev və Azərbaycan incəsənəti”** adlı rəsm sərgisi | yanvar-iyun (yekun) | Binəqədi Rayon İcra Hakimiyyəti<br>Ali, orta ixtisas və orta ümumtəhsil müəssisələri<br>6 nömrəli Uşaq-Gənclərin Yaradıcılıq Mərkəzi<br>“Qalereya 1969” sərgi salonu (Səttar Bəhlulzadə adına Sərgi Salonu) |
| **3.** | **“Heydər Əliyev və 20 Yanvar həqiqətləri”** mövzusunda dəyirmi masa | yanvar | Binəqədi Rayon İcra Hakimiyyəti<br>20 Yanvar Cəmiyyəti Binəqədi rayon şöbəsi |
| **4.** | Ümummilli lider Heydər Əliyevin azərbaycançılıq məfkurəsinin gənclər arasında təbliği məqsədilə<br>**“Azərbaycan deyəndə Səni düşünürük biz!”**<br>adlı şeir müsabiqəsi | yanvar-may | Binəqədi Rayon İcra Hakimiyyəti<br>6 nömrəli Uşaq-Gənclərin Yaradıcılıq Mərkəzi<br>Rayon orta ümumtəhsil məktəbləri |
| **5.** | Rayon təhsil müəssisələrində **“Heydər Əliyev irsinin öyrənilməsi”** mövzusunda dərslərin təşkili | yanvar-iyun<br>sentyabr-dekabr | Binəqədi Rayon İcra Hakimiyyəti<br>Rayon orta ümumtəhsil məktəbləri |

| | | | |
|---|---|---|---|
| 6. | **"Heydər Əliyev və Azərbaycan gəncliyi"** mövzusunda seminarların keçirilməsi | fevral | Binəqədi Rayon İcra Hakimiyyəti<br>Ali, orta ixtisas və orta ümumtəhsil müəssisələri<br>Binəqədi Gənclər Evi sosial xidmət müəssisəsi |
| 7. | Elm xadimlərinin, tanınmış ziyalıların iştirakı ilə **"Azərbaycan elminin böyük himayədarı"** mövzusunda tədbirlərin keçirilməsi | fevral-dekabr | Binəqədi Rayon İcra Hakimiyyəti<br>Azərbaycan Milli Elmlər Akademiyası<br>Ali, orta ixtisas və orta ümumtəhsil müəssisələri |
| 8. | Orta ümumtəhsil məktəblərinin şagirdləri arasında ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş **"Futbol"** çempionatı | mart-may (final) | Binəqədi Rayon İcra Hakimiyyəti<br>Rayon orta ümumtəhsil məktəbləri<br>"Vətən"<br>Respublika İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər Futbol Məktəbi |
| 9. | Gənclərin yaradıcılıq fəaliyyətinin dəstəklənməsi məqsədilə rayon musiqi məktəblərinin iştirakı ilə **"Musiqidə əbədiləşən ömür"** adlı silsilə tədbirlər | aprel-dekabr | F.Əmirov adına 6 nömrəli Onbirillik İncəsənət Məktəbi<br>A.Məlikov adına 11 nömrəli Onbirillik Musiqi Məktəbi<br>M.Maqomayev adına 26 nömrəli Onbirillik Musiqi Məktəbi |
| 10. | Ümummilli lider Heydər Əliyevin azərbaycançılıq məfkurəsinin gənclər arasında təbliği məqsədilə **Heydər Əliyev Mərkəzinə** ekskursiya | aprel<br>dekabr | Binəqədi Rayon İcra Hakimiyyəti<br>Ali, orta ixtisas və orta ümumtəhsil müəssisələri |
| 11. | Ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş fləşmobun keçirilməsi | aprel | Binəqədi Rayon İcra Hakimiyyəti<br>Ali, orta ixtisas və orta ümumtəhsil müəssisələri |
| 12. | Ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş xalq şairi Zəlimxan Yaqubun poeması əsasında səhnələşdirilmiş **"Böyük Ömrün Dastanı"** tamaşasının nümayişi | may | Binəqədi Rayon İcra Hakimiyyəti<br>Şuşa Dövlət Musiqili Dram Teatrı |

| | | | |
|---|---|---|---|
| **13.** | Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin 100 illiyinə həsr olunmuş ağacəkmə aksiyası | may | Binəqədi Rayon İcra Hakimiyyəti<br>Binəqədi Rayon İcra Hakimiyyəti başçısının SİƏD və QİƏD üzrə nümayəndələri<br>Ali, orta ixtisas və orta ümumtəhsil səhiyyə, mədəniyyət müəssisələri<br>Qeyri-Hökumət Təşkilatları<br>Bələdiyyələr (tövsiyə olunur) |
| **14.** | Ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş **"Ulu Öndər irsinin izində"** adlı intellektual bilik yarışı | may-iyun | Binəqədi Rayon İcra Hakimiyyəti<br>Binəqədi Gənclər Evi SXM<br>Rayon orta ümumtəhsil müəssisələri |
| **15.** | Ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş **"Sən elə bir Zirvəsən!"** adlı konsert proqramının təşkil edilməsi | may | Binəqədi Rayon İcra Hakimiyyəti,<br>Mədəniyyət müəssisələri |
| **16.** | 15 İyun-Milli Qurtuluş Gününə həsr olunmuş **"Qurtuluşdan Zəfərə"** adlı rayon tədbirinin keçirilməsi | iyun | Binəqədi Rayon İcra Hakimiyyəti<br>Ali, orta ixtisas və orta ümumtəhsil səhiyyə, mədəniyyət müəssisələri<br>Dövlət orqanları (qurumları)<br>Qeyri-Hökumət Təşkilatları |
| **17.** | **"Ulu öndər Heydər Əliyevin həyatında kitab və mütaliənin rolu"** adlı kitab sərgisi | iyun | Binəqədi Rayon İcra Hakimiyyəti<br>Binəqədi rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi |
| **18.** | Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə gəlişinin 54-cü ildönümünə həsr olunmuş **"Xalqın Xilaskarı"** adlı rayon tədbirinin keçirilməsi | iyul | Binəqədi Rayon İcra Hakimiyyəti |
| **19.** | Gənclər arasında vətənpərvərlik işinin təbliği məqsədilə **"Heydər Əliyev və dil mədəniyyətimiz"** adlı tədbirin keçirilməsi | avqust | Binəqədi Rayon İcra Hakimiyyəti<br>Azərbaycan Milli Elmlər Akademiyası |
| **20.** | Rayon ümumtəhsil məktəblərinin şagirdləri arasında **"Heydər Əliyev və Azərbaycan tarixi"** mövzusunda referat yazı müsabiqəsinin rayon mərhələsi | sentyabr-oktyabr | Binəqədi Rayon İcra Hakimiyyəti,<br>Rayon orta ümumtəhsil məktəbləri |
| **21.** | Elm xadimlərinin, tanınmış ziyalıların iştirakı ilə ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş **"Fəxri qonaq"** layihəsi çərçivəsində görüşlərin keçirilməsi | oktyabr | Binəqədi Rayon İcra Hakimiyyəti<br>Binəqədi Gənclər Evi sosial xidmət müəssisəsi |

| | | | |
|---|---|---|---|
| **22.** | Gənclərin Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının **"Şöhrət"** muzeyinə ekskursiyasının təşkil olunması | noyabr | Binəqədi Rayon İcra Hakimiyyəti<br>Ali, orta ixtisas və orta ümumtəhsil müəssisələri |
| **23.** | Hərbi hissədə ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş **"Heydər Əliyev və Zəfər tarixi"** adlı tədbirin keçirilməsi | noyabr | Binəqədi Rayon İcra Hakimiyyəti<br>Rayon ərazisində yerləşən "N" saylı hərbi hissəsi |
| **24.** | Ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş şair-dramaturq Hidayət Orucovun əsəri əsasında səhnələşdirilmiş **"Burdan min atlı keçdi"** tamaşasının nümayişi | dekabr | Binəqədi Rayon İcra Hakimiyyəti<br>C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrı |
| **25.** | Ümummilli lider Heydər Əliyevin azərbaycançılıq məfkurəsinin gənclər arasında təbliği məqsədilə **"Qəlblərdə Yaşayan Dahi Şəxsiyyət"** adlı dəyirmi masa | dekabr | Binəqədi Rayon İcra Hakimiyyəti,<br>Qeyri-Hökumət Təşkilatları |
| **26.** | Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anım gününə həsr olunmuş **"Xalqa bağışlanan ömür"** adlı tədbirin keçirilməsi | dekabr | Binəqədi Rayon İcra Hakimiyyəti<br>Dövlət orqanları (qurumları),<br>Ali, orta ixtisas və orta ümumtəhsil müəssisələri<br>Qeyri-Hökumət Təşkilatları |

**Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini** **Sevinc Süleymanova**

**İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri** **Nicat Allahverdiyev**